# FEİLİN NOMİNATİV VƏ MODAL ZAMANLARININ POETİKASI

***Səfərəliyev Əliağa Sədri oğlu***
***Gəncə Dövlət Universiteti***
zulfiyeismaylova8@gmail.com

**Xülasə:** *Feilin qrammatik şəkilçilərinin bir tərkib hissəsi kimi sözə qoşulma sırası feilin özünün inkar və ya təsdiq məqamında işlədilməsindən asılıdır. Feil təsdiqdə işlədildikdə zaman şəkilçisi ona birbaş qoşulur. İnkarda işlədildikdə isə feildən sonra inkar şəkilçisi daha sonra isə zaman şəkilçisi işlənir. Feillərdə zaman şəkilçiləri bir kateqoriyaya daxil olduğu halda onlar paradiqma yaratmırlar. Yəni zaman şəkilçisi feilə qoşulduqda tam bir informasiya neytrallığı müşahidə edilir. Feil zamanlarına məxsus informasiya yalnız onların şəxsə aidiyyəti üzrə baş verir. Yəni feil zamana görə o yerdə informasiya verə bilər ki, ya ona hansısa şəxs şəkilçisi qoşulmuş olsun və ya zaman şəkilçili sözdə şəxs anlayışı bildirilsin. Feil zamanları da ancaq şəxs şəkilçiləri və ya şəxs anlayışına görə paradiqma yaradır. Feilin zaman paradiqması şəxs əlamətlərinə görə, eləcə də üç şəxsin təkinə və cəminə aidiyyəti üzrə informasiya funksiyasına malik olur. Feil zamanlarının poetikası da onun şəxs şəkilçiləri ilə yaratdığı paradiqma əsasında baş verir. Feil zamanlarının özü müvafiq qrammatik əlamətlər üzrə həm tam qrammatik və modal qrammatik zaman anlayışı bildirir. Tam qrammatik zaman anlayışı nominativ anlayışdır. Burada hadisələr birbaşa əlavə çalarlıq olmadan verilir. Modal zamanlardakı zaman anlayışı isə hərəkətin gerçəkliyə münasibəti mənasında başa düşülür. Hər iki halda poetiklik şəkilçilərin ardıcıl olaraq təkrar işlənməsi zamanı baş verən ritmlə, ahəngdarlıqla, avazlanma ilə, həmçinin, ritorizmlə səciyyələnir.*

**Açar sözlər**: nominativ zamanlar, modal zamanlar, poetizm, ardıcıllıq, ritm

**Ключевые слова**: номинативные времени, модальные времени, поэтизм, последовательность, ритм

**Key words:** nominative tenses, modal tenses, poetic, ceguence, rhitm

Feili qrammatik şəkilçilərin bir qrupu kimi zaman şəkilçilərinin sözə qoşulma sırası feilin inkar və təsdiq mənasından asılıdır. Feil inkarlıq məqamında işlədildikdə zaman şəkilçisi inkar şəkilçisindən sonra ikinci yerdə işlənir. Feil təsdiq məqamında işlədildikdə isə zaman şəkilçisi sözə birbaşa birinci olaraq qoşulur. Lakin zaman şəkilçiləri sözə müstəqil şəkildə qoşula bilsə də heç bir əlavə funksiya daşımır. Şəkilçinin sözə qoşulması tamamilə neytral bir vəziyyət yaradır. Söz tərkibində onun qrammatik funksiyası neytrallığa görə sıfra bərabər olur. Çünki zaman şəkilçiləri müstəqil olaraq xüsusi bir paradiqma yaratmır. Zaman şəkilçiləri ancaq şəxs şəkilçiləri ilə birlikdə işləndikdə paradiqma yaradır. Onun qrammatik funksiyası şəxsə görə şaxələnir. Yalnız şəxs şəkilçisi ilə birlikdə zaman şəkilçiləri həm qrammatik funksionallığa daxil olur, həm də üslubi səciyyə daşıyır. Zaman-şəxs şəkilçilərinin sözə ardıcıl qoşularaq işlədilməsi ilə eyni zamanda poetik vüsət yaradılır. Zaman-şəxs şəkilçilərinin söz tərkibində iştirakı ilə baş verən qrammatik funksionallıq tamamilə nominativ xarakterlidir. Çünki qrammatik funksionallıq yalnız adi, emosiyadan kənar, ritorizm xarakterli olmayan bir növ rəsmi informasiyaların verilməsinə xidmət edir. Qrammatik funksionallıq daha çox rəsmi, işgüzar, elmi və publisistik üslubların dili üçün səciyyəvi olan struktur ardıcıllıq prinsipinə əsaslanır. Həmin şəkilçilərin söz tərkibində işlənməsi ilə eyni zamanda, emosional informasiyalar mətndə üslubi rəngarənglik yaradır, yazılı dili oxunaqlı edir, danışıq dilinin və şifahi dilin obrazlaşdırılmasına, yaddaqalan və cazibədar olmasına təsir göstərir. Zaman və şəxs şəkilçilərinin söz tərkibində həmcins üzvlər və paralel sintaktik konstruksiyalar daxilində ardıcıl olaraq təkrarlanma yolu ilə işlədilməsi sayəsində isə ritm ahəngdarlıq, avazlanma baş verir ki, bu da cümlə və mətnlərdə ritorizmin, həmçinin, poetik vüsətin canlandırılmasın xidmət edir.

Poetizm elə bir ifadə formasıdır ki, onun vasitəsi ilə nəsr nümunələri ritmə, ahəngdarlığa və avazlanmaya görə sanki daxildən qafiyələnir. Bu isə nəsr dilini ritorikləşdirir

və nəzm dilinə, bir növ şeir dilinə çevirir, onun axıcı olmasını təmin edir. nəzm dilinin isə daha da cazibədar olmasına təsir göstərir. Bununla da poetizm anlayışı əslində poeziya anlayışından daha geniş bir mühit yaradır. Poetizmin bünövrəsi danışıq dilindən gəlir, şifahi dilin cilalanmasına təsir göstərir, bədii mətnləri obrazlaşdırır, təsvir olunan hadisə, situasiya və bədii xarakterlər barədə canlı bir təəssürat, geniş bir mənzərə yaradır. Bədii mətnin poetizmi bir çox hallarda üslubi rəngarənglik kimi səciyyələndirilir. Lakin üslubi canlandırma ilə poetizm arasında incə bir fərq vardır. üslubi rəngarənglik emosionallığa, xarakterlərin obrazlaşdırılmasına xidmət etdiyi halda poetizm ahəngdarlığın, ritmin, avazlanmanın və ritorizmin baş verməsini şərtləndirir. Daha müxtəsər deyilsə, poetizm hadisələrin təsvirini, obrazların canlandırılmasının bədii mənzərəsini yaradır, təsvir dilinin axıcılığını təmin edir, nəsr dilini nəzməbənzər bir dilə çevirir, nəzm dilində isə cazibədarlıq əmələ gətirir. Poetik dil, eyni zamanda bədii informasiyaları aktuallaşdırır və onun intensiv xarakter olmasını şərtləndirir. Poetizm dil sistemində özünəməxsus ifadə vasitələrinə malikdir. Dilin bütün səviyyələrinə məxsus elementlər poetizm yaradılmasının iştirakçılarına çevrilə bilər. Ayrı-ayrı dil elementləri kimi feilin zaman və şəxs şəkilçiləri pardiqması da özünəməxsus poetik xanlandırma keyfiyyətlərinə malikdir. Bunları zaman və şəxs şəkilçiləri ardıcılığı əsasında aşağıdakı təsnifatda ümumiləşdirmək olar.

*1.1. Şühudi keçmiş zamanın şəxs paradiqması ardıcıllığına məxsus elementlərin poetizmi.* Şühudi keçmiş zaman və şəxs şəkilçilərinin iştirakı ilə yaranan paradiqmada şəkilçilərin ardıcıl olaraq təkrarlanması ilə birincisi şühudi keçmişə dair emosional məna çalarlığı qüvvətləndirilir və canlandırılır. Bu şühudi keçmiş zamanın şəxs paradiqması üzrə yaratdığı üslubi rəngarəngliyidir. Həmin şəkilçilərin ardıcıl təkrarlığı isə təkrarlanan sözlərdə ritm və ahəngdarlıq, həmçinin avazlanma yaradılmasına xidmət edir. Bu halda yaradılan cümlədaxili aralıq ahəngdarlıq bir növ daxili qafiyələnmə yaradır. Belə bir ahəngdarlıq isə hadisə, situasiya və bədii obraz barəsində şürudu keçmiş anlayışının poetikləşdirilərək ritmik üsulla çatdırılmasını şərtləndirir.

Şühudi keçmiş zamanın şəxs paradiqması üzrə yaratdığı poetikliyin ritmik vasitələri ifadəsinə dair aşağıdakı nümunələri misal göstərmək olar:

*1.1.1. Cümlədaxili eyni sintaqm tərkibindəki eyni üzvlərin təkrarında:* Belə təkrarların cümlədə davamlı olaraq ardıcıl işlənməsi təkrar üzvlərdə ritmikliyin daha da artmasına səbəb olur:

Dünya Həsən kişinin ayağının altından qaça-qaça *balacalandı, balacalandı,* gedib durdu kəhər atın ayağının altında (R.Rövşən, Belə-belə işlər, s. 462); hər gələnə deyirdi ki, sən istəyən şey dükanda yoxdu. *Dedi, dedi, dedi* axırı bir yerdə dayandı (C.Məmmədquluzadə, Danabaş kəndinin əhvalatları, s. 44).

*1.1.2. Eyni sözün və mənaca kontrast yaradan şühudi keçmiş şəkilçili digər sözün iştirakı ilə*:

Oğrun baxa-baxa ey çeşmi-Nərgiz
Dərdə saldın məni xəstəhal etdin
Həsrətindən *öldüm, öldüm, dirildim*
Nə bir yada saldın, nə sual etdin

***(M.P.Vaqif)***

*1.1.3. Eyni təkrarlardan sonuncusunun inkar şəkilçisi ilə ifadəsi əsasında:* Yaxşı, ata, əgər mən onun haman Qıratını bir həftəyə kimi sənin qulluğuna *gətirdim, gətirdim, gətirmədim,* bax, bu papaq mənə haram olsun ("Koroğlu", 1959, s. 75).

*1.1.4. Şühudi keçmiş zaman şəkilçili sözün ayrı-ayrı cümlə tərkibində bir neçə qat təkrarlığı ilə*:

Mənə əvvəlcə özün yar *oldun*
Sevdiyimsən deyə dildar *oldun*

Məst ikən mən hələ huşyar *oldun*
Başqa bir fikrə həvəskar *oldun*
Cümlə maəmlakimə nar *oldun*
Məni yox etdin, özün var *oldun.*

***(M.Ə.Sabir, s. 279)***

Bu kimi nümunələrin sayını artırmaq da olar. Məsələ bundadır ki, dildə qafiyəliliyin hüdudları geniş olduğu kimi ritmik ahəngdarlıq üçün də qəti bir standart ölçü mövcud deyildir. Odur ki, poetizm dildə nitq elementlərinin ardıcılığı və təkrarlığı üzrə rəngarəng bir şəkildə baş verir. Bunlar həm ortaq və həm də paralel komponentlərdə baş verir ki, onların işlənməsi mətndəki məqsəddən və situasiyadan daha çox asılı olur [1, 209-293].

Cümlə və mətnlərdəki poetikliyi, bir qayda olaraq onların tərkibindəki müəyyən üzvlərin hər hansı ritm üzrə qafiyə yaratmasına görə təyin edilir. Poeziya nümunələrində qafiyəlilik, artıq müəyyən ritm və ölçü üzrə standartlaşmışdır. Həsrdə isə belə bir standart olmadığından poetizm əsas etibarı ilə təkrarların ritm və ahəngdarlığı üzrə baş verir. Tofiq Hacıyev yazır: "Dünya poeziyasının təcrübəsi göstərir ki, … misraların həcimliyi, tələffüzündəki siqləti, intonasiya dolğunluğu bir atribut kimi diqqəti cəlb edir" [7, 17-18, 35].

Mətnin poetikası barəsindəki tədqiqatlarda da bir qayda olaraq poetizmin başlıca ifadə vasitəsi və atributu kimi təkrarlanan elementlərin xüsusi əhəmiyyətə malik olduğu göstərilir [18, 19, 184-185; 20, 6, 272; 21].

Poetizmlə əlaqədar araşdırmalarda poetizmin bariz nümunələrinin xüsusilə folklor ədəbiyyatında daha artıq nümayiş olunduğu göstərilir [6; 7, 99]. Bədii dildə üslubiyyat və poetiklik xüsusiyyətləri müasir tədqiqat əsərlərində həmhüdud bir kateqoriya kimi təhlil edildiyindən bəzi hallarda poetik xüsusiyyətlər məhz üslubiyyat məsələləri çərçivəsində qeyd olunur [4; 5; 8; 13].

*1.2. Nəqli keçmiş zaman və şəxs paradiqmasının poetikası.* Şühudi keçmiş zamanda olduğu kimi nəqli keçmiş zamanda da ritmlə, ahəngdarlıqla və avazlanma ilə müşayiət olunan poetizm xüsusiyyətləri şəkilçilərin həmcins təkrarlar və sintaktik paralellər tərkibində müvafiq ardıcıllıqla sıralanmasında özünü nümayiş etdirir. Bunların ən səciyyəvi variantlarını aşağıdakı kimi nümunələrdə müşahidə etmək olur:

*1.2.1. Təkrarlanan -mış (-miş, -muş, -müş) nəqli keçmiş zaman şəkilçisi müstəqil cümlələrin sonundakı və başlanğıcındakı eyni sözün tərkibində işlənərən poetik ritm yaradır*: Ona görə dünyaya, hər şeydən əvvəl bu zəhmətli kovşənlərə, cücülər yurduna həmişəlik və ümumi bir aydınlıq *gətirmişdi*. *Gətirilmişdi* və hərarətli şüaları ilə adamları xəbərdar etmək istəmişdi (Mir Cəlal. Bir gəncin manifesti, s. 17).

*1.2.2. Təkrarlanan -mış (-miş, -muş, -müş) nəqli keçmiş zaman şəkilçisi ardıcıl eyni həmcins üzvlərin tərkibinə:* Qonaqlar yığışmışdı zal otağına. Ortaya *düzülmüşdü* stollar və stolların üstünə *düzülmüşdü* növ-növ çərəzlər, suxarılar, halvalar, konfetlər, lumular, paxlavalar, quru yemişlər (C.Məmmədquluzadə, Qurbanəli bəy, s. 177).

*1.2.3. Təkrarlanan -mış (-miş, -muş, -müş) şəkilçisi ardıcıl müxtəlif həmcins üzvlərin tərkibində işlənərək ritm və ahəngdarlıq yaradır*: Beş gün qalıb o ki lazımdır, yeyib *içmiş, gəzmiş, görmüş, danışmış*, söhbət eləmişdik. (Ə.Vəliyev, Bulaqlıya səyahət, s. 30).

*1.3. İndiki zaman və şəxs paradiqmasının poetikası.* İndiki zaman şəkilçilərinin cümlə tərkibindəki üzvlərin ardıcıl işlənməsi ilə poetiklik yaratması zamanı indiki zaman anlayışı ritorikləşir, intensivləşir və aktuallaşır. İndiki zaman şəkilçilərinin şəxs paradiqmasında müştərək poetiklik yaratmasını aşağıdakı kimi nümunələrdə müşahidə etmək olur:

*1.3.1. İndiki zaman şəkilçisi şəxs paradiqması ilə müştərək şəkildə ardıcıl qidalanan həmcins üzvlərin tərkibində işlənərək ritm ahəngdarlıq yaradır*:

Neyləyim, axır bu yox olmuşların
Fikrini qan-qan görürəm, *qorxuram*

*Qorxuram, qorxuram, qorxuram.*

***(M.Ə.Sabir, I, s. 126)***

*1.3.2. Təkrar olunan eyni üzvlər bir-biri ilə ardıcıl əlaqəli olan cümlələrin davamı kimi işlənir, indiki zaman elementi cümlələrarası ritm və ahəngdarlıq yaradılmasının iştirakçısına çevrilir*: Görürəm ayaqyalın, başıaçıq qarın-buzun içində itib-batıb; *yüyürür, yıxılır; iməkləyir, ağlayır; ufuldayır, sızıldayır* (R.Rövşən, Daş, s. 603).

*1.3.3. Təkrar olunan üzv bir-biri ilə məzmunca bağlı olan müstəqil cümlələrin sonunda işlənir.*

İndiki zaman şəkilçisinin təkrarlığı ilə ritm, ahəngdarlıq cümlələrin informasiya intensivliyini canlandırır:

İstəməm nuri, qaranlıq *sevirəm*
Mülki-iranı dumanlıq *sevirəm*
Boşlayıb şəhri yabanlıq *sevirəm*
Bəsdi şahlıq, dəxi xanlıq *sevirəm*
Səbzəvar ilə məyamey satıram!

***(M.Ə.Sabir, I, s. 222)***

*1.4. Qəti gələcək zaman və şəxs paradiqmasının poetikası.* Qəti gələcək zaman və şəxs paradiqması elementlərinin təkrarlıqla həmcins və paralel sintaktik konstruksiyalarında ardıcıl işlənməsi ilə gələcək zamana aid qətiyyət anlayışı canlandırılır, intensivləşir və aktual xarakter alır. Şəkilçilərin rdıcıllığı ilə ritm və ahəngdarlığın ifadəsi cümlə və mətnlərdə poetik vüsət yaradılmasının aparıcı vasitəsinə çevrilir. Qəti gələcək zaman və şəxs paradiqması şəkilçilərinin müştərək poetizm yaradılmasını aşağıdakı kimi nümunələrdə müşahidə etmək olur:

*1.4.1. Qəti gələcək zaman şəkilçisi eyni sözlər paralel komponentlərin tərkibində ardıcıl işlənir və cümlədə daxili qafiyəyaratma üzrə ritmik ahəngdarlıq əmələ gətirir:* Əliş başa düşdü ki, bu kişilər bir də onun gözünə dik başa *bilməyəcəklər*, bu arvadlar bir də onun dalınca hırıldaya *bilməyəcəklər*, bu uşaqlar bir də onu dolayı *bilməyəcəklər*. (R.Rövşən, Hərə öz gördüyünü görür, s. 518).

*1.4.2. Ortaq mübtədalı cümlələrin xəbərlərində eyni üzvlər təkrar olunur. Təkrarlı üzvlərin tərkibindəki qəti gələcək-şəxs elementləri ritmyaratma vasitəsinə çevrilir*: Qazı cumdu kitaba, bir qədər oxuyub sevincək kitabı qoydu qabağına.

- İnşallah *kəşf edəcəyəm*, bu məsələni *kəşf edəcəyəm*, lap asan vəchlə *kəşf edəcəyəm*. (C.Məmmədquluzadə, Danaşabaş kəndinin əhvalatları, s. 58).

*1.4.3. Tabesiz mürəkkəb cümlə daxilindəki ardıcıl xəbərlərdə qəti gələcək zaman şəkilçisi təkrarlanaraq ritm və ahəngdarlıq yaradır*: Bu ilin üzümü heç! Bu ilin üzümü getdi! Quşlar *dənləyəcək*, uşaqlar *talayacaq*, mürəbbəsi *bişməyəcək*, çaxırı *çəkilməyəcək* (R.Rövşən, Daş, s. 578).

*1.5. Qeyri-qəti gələcək zaman və şəxs paradiqmasının poetikası.* Qeyri-qəti gələcək zaman şəkilçisinin şəxs paradiqması üzrə işlənməsi ilə gələcək zamanda baş verə bilən hadisələr barədə qətilik bildirilməməsinə dair informasiyalar ifadə olunur. Şəkilçilərin müştərək qaydada təkrarlığı isə informasiyanı intensivləşdirir və eyni zamanda qafiyəyaradıcı xarakterli ritm və ahəngdarlıq yaradır. Qeyri-qəti gələcək zaman üzrə baş verən şəkilçi təkrarlığının poetiklik yaratmasını aşağıdakı kimi nümunələrdə müşahidə etmək olur.

*1.5.1. Qeyri-müəyyən gələcək zaman şəkilçisinin şəxs paradiqmasında müştərək mübtədası olan cülələrdəki təkrar sadalanması ilə*:

Gahdan çiskin tökər, gah duman *eylər*
Gah gəlib-jedəni pərişan *eylər*
Gahdan qeyzə gələr, nahaq qan *eylər*
Dinşəməz haramı, halalı dağlar

***(Aşıq Ələsgər, 2004, s. 36)***

*1.5.2. Təkrarlanan komponentlərdəki qeyri-müəyyən gələcək zaman şəkilçisinin təsvir olunan hadisə və situasiyanın emosionallıq yaradılması məqamında, ixtisar varintda işlədilməsi ilə*:

Sən hey de yoxumdu, çıxarıb canını *allam!*
Şallağa tutub peykəri-üryanını *allam!*
Vallahi oyub dideyi-giryanını *allam!*

***(M.Ə.Sabir, I, s. 113)***

*1.5.3. Mürəkkəb tərkibli cümlələrdəki müştərək mübtədalı müstəqil xəbərlərdə qeyri-müəyyən gələcək zaman şəkilçisinin təkrarlanması ilə*: Bu kənddə qızlar-gəlinlər paltar yuyanda çay qırabına *yenərdilər,* çör-çöp yığıb ocq *qalayardılar.* Qazan asıb bu isidərdilər, pal-paltarı yuyub çayda suya çəkərdilər. (R.Rövşən, Analardan uzun qızlar, s. 521).

*1.6. Modal qrammatik zamanlar və şəxs paradiqması elementlərinin poetikası.* Modal qrammatik zamanların şəxs paradiqması ilə müştərək qaydada təkrarlıqla işlənməsi zamanı hər bir modal zamana aid məna xüsusiyyətlərində intensivləşmə baş verir. Eyni zamanda təkrar elementlərin ardıcıl işlənməsi sayəsində cümlələrin poetikliyini səciyyələndirən ritm, ahəngdarlıq, ritorika, pafos və avazlanma baş verir.

Modal zamanlarda şəkilçi elementlərinin təkrarlanması üzrə baş verən poetikliyə dair aşağıdakı kimi nümunələri misal göstərmək olar:

*1.6.1. Arzu modal qrammatik zaman üzrə*: Arzu modal qrammatik zaman arzu, istək anlayışı üzrə qeyri-müəyyən zamanı bildirir: İstəyirəm ayağını *qucaqlayam,* o da başımı *tumarlaya, sığallaya,* layla deyə (R.Rövşən, Daş, s. 630).

*1.6.2. Əmr modal qrammatik zaman üzrə*: Əmr modal qrammatik zamanda konkret, hazırkı, əmr, hökm, təhrik çalarlıqlı zaman anlayışı bildirilir:

Baqqal istədi *alsın*, o da qayçı *kimi*, aşbaz istədi *alsın* o da belə (Azərbaycan nağılları, I, s. 30).

*1.6.3. Şərt modal qrammatik zaman üzrə*: Şərt modal qrammatik zamanda qeyri-müəyyən gələcək zaman üzrə şərt anlayışı bildirilir:

Dəmirçioğlu dedi:

-Mən nə onun qılıncından qorxuram, nə şeşkərindən, nə də dəlilərindən. *Qorsam, qorxsam* bəlkə o nərədən qorxam. ("Koroğlu", 1959, s. 77).

*1.6.4. Vacib modal qrammatik zaman üzrə*: Vacib modal qrammatik zaman forması qətiyyətlə, zərurətlə, təhrikediciliklə bağlı gələcək zaman anlayışı bildirir:

Bu yerlərin üç yolu var, üçü də balam, *getməli*
Biri eniş, biri yoxuş, biri düz
Eniş sənin, yoxuş sənin düz mənim
Bilirəm, *gəlməlisən, gəlməli*
Ayda bir yol, həftədə bir yol *gəlməlisən, gəlməli* [22].

*1.6.5. Lazım modal qrammatik zaman üzrə*: Lazım modal qrammatik zaman hadisənin gələcəkdə baş verəcəyinin lazımlılığını, əhəmiyyətliliyini bildirir: Xəbərə gələcəm də buradn Çənlibelə azı bir həftəlik yoldu. Mən *gedəsi*, xəbər *verəsi*, Koroğlu *gələsi*, yəqin ki, onları öldürərlər. ("Koroğlu", 1959, s. 147).

Feilin zamanlarının poetik xüsusiyyətləri daha geniş və daha rəngarəngdir. Çünki feillərin özü hərəkət bildirən nitq hissəsi kimi mütəhərrikdir və çevikdir. İnformasiyaların intensivləşdirilməsi ilə əlaqdar feil zamanlarının poetikliyindən həm danışıq dili üslubunda, həm şifahi dil üslubunda və həmçinin bədii nümunələrdə geniş istifadə edilir.

## *Ədəbiyyat*

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. 4 hissədə, IV h., Bakı, Şərq-Qərb, 2007, 224 s.
2. Aşıq Ələsgər. Əsərləri. Bakı, Şərq-Qərb, 2004, 400 s.
3. Azərbaycan nağılları. 5 clilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 360 s.

4. Bağırov Ə. Mürəkkəb cümlələrin üslubi xüsusiyyətləri. Bakı, ADU nəşr., 1978, 51 s.
5. Bağırov Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, ADU nəşr., 1985, 77 s.
6. Əliyev K.Eposun poetikası"Kitabi-Dədə Qorqud" və Koroğlu". Bakı, Elm və təhsil, 2011, 162 s.
7. Hacıyev T. Mikayıl Baştunun "Şah qızı dastanı" və onun poetikası. Bakı, Təhsil, 312 s.
8. Hacıyev T. Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi. Filol.üzrə fəlsəfə dokt. dis. Bakı, BDU, 2001, 145 s.
9. İslam Sadıq (İslam Sadıqov) Şumer və Türk dastanları. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2012, 208 s.
10. "Koroğlu" dastanı, Azərb. SSR EA nəşri. Bakı, 1959, 508 s.
11. Məmmədquluzadə C. Əsərləri, Dörd cilddə, I c., Bakı, Öndər nəşriyyat, 2004, 664 s.
12. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu, 2008, 462 s.
13. Mustafayeva T. Azərbaycan dilinin üslubiyyatı. Bakı, Elm, 2010, 392 s.
14. Rövşən R. Nəfəs. Kitablar kitabı (şeir, nəsr, esse). Bakı, Qanun, 2006, 760 s.
15. Sabir M. Hophopnamə, 2 cilddə, I c., Bakı, Şərq-Qərb, 2004, 480 s.
16. Vaqif M.P. Əsərləri, Bakı, Şərq-Qərb, 2004, 264 s.
17. Vəliyev Ə. Seçilmiş əsərləri. AVRASİYA PRESS, Bakı, 2005, 320 s.
18. Vəliyev K. Linqvistik poetikaya giriş. Bakı, ADU nəşr., 1984, 11 s.
19. Vəliyev K. Sözün sehri. Bakı, Yazıçı, 1986, 303 s.
20. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı, Gənclik, 1987, 280 s.
21. Vəliyev K. Linqvistik poetikaya giriş. Bakı, Universiteti nəşr., 1989, 104 s.
22. www.azeribalası.com/shathreadphp/26320-alma-senin-nar menim

## ПОЭТИКА ИМЕНИТЕЛЬНОГО И МОДАЛЬНОГО ВРЕМЕН ГЛАГОЛА

***Сафаралиев Алиага Садри оглы***

***Резюме***

Порядок, в котором глагол добавляется к слову как часть его грамматических суффиксов, зависит от того, используется ли сам глагол в отрицательном или утвердительном смысле. Когда глагол используется в утверждении, суффикс времени непосредственно присоединяется к нему. Когда используется в отрицании, отрицательный суффикс используется после глагола, а затем используется суффикс времени. В глаголах, когда временные суффиксы попадают в одну категорию, они не создают парадигму. То есть при добавлении к глаголу временного суффикса соблюдается полная информационная нейтральность. Информация о временах глаголов встречается только в отношении их личности. То есть глагол может давать информацию в зависимости от времени, когда к нему добавляется суффикс человека или выражается понятие человека с суффиксом времени. Времена глаголов также создают парадигму только в терминах суффиксов личности или концепции личности. Временная парадигма глагола выполняет информационную функцию в зависимости от характеристик человека, а также от подлежащего и суммы трех лиц. Поэтика глагольных времен также происходит на основе созданной им парадигмы с личными суффиксами. Глагольные времена сами по себе выражают концепцию как полных грамматических, так и модальных грамматических времен в соответствии с соответствующими грамматическими особенностями. Понятие полного грамматического времени - это понятие именительного падежа. Здесь события даны напрямую, без дополнительной штриховки. Концепция времени в модальных временах понимается в смысле отношения действия к реальности. В обоих случаях поэтичность характеризуется ритмом, гармонией, тоном, а также риторикой, возникающей при последовательной обработке суффиксов.

## POETICS OF THE NOMINATIVE AND MODAL TENSES OF THE VERB

***Safaraliyev Aliaga Sadri oglu***
***Summary***

The order in which a verb is added to a word as part of its grammatical suffixes depends on whether the verb itself is used in the negative or affirmative. When the verb is used in affirmation, the tense suffix joins it directly. When used in negation, the negative suffix is used after the verb, and then the tense suffix is used. In verbs, when tense suffixes fall into one category, they do not create a paradigm. That is, when the time suffix is added to the verb, a complete information neutrality is observed. Information about verb tenses occurs only in relation to their person. That is, the verb can give information according to the time when either a person suffix is added to it or the word person with the time suffix is used. Verb tenses also create a paradigm only in terms of person suffixes or the concept of person. The tense paradigm of the verb has an information function according to the personality traits, as well as the relation to the base and sum of the three persons. The poetics of the verb tenses also takes place on the basis of the paradigm he created with personal suffixes. Verb tenses themselves express the concept of both complete grammatical and modal grammatical tenses according to the corresponding grammatical features. The concept of full grammatical tense is a nominative concept. Here the events are given directly without additional shading. The concept of time in modal times is understood in the sense of the relation of action to reality. In both cases, poeticity is characterized by rhythm, harmony, tone, as well as rhetoric, which occurs during the successive processing of suffixes.

***Rəyçi: prof. Mübariz Yusufov***
***Azərbaycan dili kafedrasının 31 yanvar 2021-ci il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi 30 mart 2021-ci il***

**UOT:811.512.162.**

## ANTROPOERQONİMLƏR VƏ ONLARIN FUNKSİYALARI

***Tağıyeva Könül Arzu qızı***
***Gəncə Dövlət Universiteti***
***Azərbaycan dili kafedrasının dissertantı***
***tagiyeva.konul87@gmail.com***

**Xülasə:** *Məqalə Azərbaycan onomastik məkanında işlənən antroponimik erqonimlərə həsr olunmuşdur. Qeyd edilir ki, son illərdə erqonimlər tədqiqatçıların diqqətini getdikcə daha çox cəlb edir. Antroponimlərdən erqonimyaratma mənbələri kimi istifadə edilməsi böyük maraq kəsb edir. Onların erqonimiyanın zənginləşməsində mühüm rol oynadığı bildirilir. Göstərilir ki, mövcud antropoerqonimlərə presedent adlar və müəssisə sahiblərinin adları daxildir. Bu adların memorial, ünvan, ekspressiv, informativ və təsiredici funksiyalar yerinə yetirdiyi müəyyən edilir.*

**Açar sözlər:** erqonim, erqonimiya, antropoerqonim, erqonimyaratma, presedent ad.
**Ключевые слова:** эргоним, эргонимия, антропоэргонимия, образование эргонимов, прецедентное имя.
**Keywords:** ergonym, ergonomia, anthropoergonim, creation of ergonym, precedent name

**Giriş**

Erqonimika onomastikanın sürətlə inkişaf edən sahəsidir. Son illərdə erqonimlər tədqiqatçıların diqqətini getdikcə daha çox cəlb edir. “Bu cür adlar istər yaranma tarixinə, istərsə də yaranma yolları və prinsiplərinə görə olduqca müxtəlifdir” [Qurbanov, 2019, s.306].